# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAF PERSPEKTİVLƏRİ


**Könül Qafarbəyli**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutu, qafarbeyli_konul@mail.ru*


Azərbaycan azad edilmiş ərazilərdə müasir şəhər planlaşdırılması həyata keçirir, "yaşıl enerji" və "sıfır tullantı" konsepsiyalarını tətbiq edir. Dünya ölkələrinin müharibədən sonraki praktikasına nəzər saldıqda aşağıdakı ardıcıllıqla inkişafa çatmaq mümkün olmuşdur:

I) Taxılın, yem bitkilərinin və otlaqların məhsuldarlığının artırılması; II) Süd istehsalının artırılması, südün və digər tez xarab olan məhsulların keyfiyyətinin yaxşılaşdırılması; III) Heyvanların yemlənməsinin səmərəliliyinin artırılması; IV) Məhsuldarlığın artırılması üçün təsərrüfatlarda mexanikləşmənin aparılması. Bu tədbirlər nəticəsində müharibədən sonrakı dövrdə müharibə şəraitindən çıxmış ölkələrdə sənaye sahəsindəki qədər olmasa da, kənd təsərrüfatı məhsullarının istehsalının sürətlə artımı izlənilirdi. Qeyd edək ki, bu artım əkin sahələrinin genişləndirilməsi hesabına yox, intensiv istehsal üsullarının tətbiqi hesabına əldə edilmişdir.

Azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter daşıyır və hər bir ərazi üçün spesifik və lokal xarakter daşıyır. Belə ki, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Xocavənd və Laçın rayonlarında taxıl əkilmiş 49207,6 ha sahədə biçin işləri aparılmışdır. Ümumilikdə, 20014.6 ha sahədə (Ağdam rayonunda 730.7 ha, Cəbrayıl rayonunda 6393 ha, Füzuli rayonunda 1270.9 ha, Qubadlı rayonunda 6370 ha, Zəngilan rayonunda 4400 ha, Laçın rayonunda 850 ha) biçin həyata keçirilmiş, 15215.3 ton məhsul yığılmışdır.

İşğaldan azad olunmuş ərazilərdə 2021-2022-ci təsərrüfat ili üzrə biçin aparılmış sahələr, ha

| Rayonlar | | Səpin aparılmış sahə | Biçin həyata keçirilmiş sahə |
|---|---|---|---|
| 1 | Ağdam | 5787,81 | 730.7 |
| 2 | Cəbrayıl | 15040 | 6393 |
| 3 | Füzuli | 3192,2 | 1270.9 |
| 4 | Qubadlı | 14401 | 6370 |
| 5 | Zəngilan | 8130 | 4400 |
| 6 | Xocavənd | 680,5 | |
| 7 | Laçın | 1976 | 850 |
| Cəmi | | 49207.56 | 20014.6 |

Kəlbəcər və Laçın rayonu ərazisinə iri və xirdabuynuzlu heyvanların və arı ailələrinin köçü təmin edilmişdir. Ümumilikdə, 940 fermer tərəfindən 329166 baş xırdabuynuzlu, 23794 baş iribuynuzlu heyvan Kəlbəcər və Laçın rayonunun yaylaqlarına köçürülmüşdür. Bundan əlavə, 1069 fermer tərəfindən 61045 arı ailəsi vahidi işğaldan azad olunmuş ərazilərə aparılmışdır. Bunlardan, 1036 arı ailəsi Qubadlıya, 40-ı ailəsi Cəbrayıla, 310-u Füzuliyə, 208-i Xocavəndə, qalanları isə Kəlbəcər və Laçın rayonlarına köçürülmüşdür.

Azərbaycanda heyvandarlıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında daha yüksək səviyyədə inkişaf imkanlarına malikdir və kənd sakinləri üçün gəlir əldə etməkdə mühüm rol oynayır.

İşğaldan azad olunmuş ərazilərdə əhalinin əmək vərdişləri, subalp və alp çəmənlərində, təbii otlaq və biçənəklərdə, düzən ərazilərdə qış otlaqlarının mövcudluğu heyvandarlığın regionda yayqış otlaqları əsasında inkişaf etdrilməsi üçün geniş imkanlar yaratmışdır.